# DAĞ ÇÖLLƏRİNİN AMFİBİ- VƏ REPTİLİLƏR FAUNASI (XIZI RAYONU TİMSALINDA)

**Bünyatova S.N.[1], Cəfərova S.Q.[2], Soltanova Z.Ə.[2]**

[1]*AMEA Zoologiya İnstitutu*, [2]*Bakı Dövlət Universiteti*

*s_bunyatova@mail.ru*

Xızı rayonunda yayılan suda-quruda yaşayanların və sürünənlərin növ müxtəlifliyini öyrənmək məqsədi ilə 2021-ci ilin yaz, yay və aylarında Xızı rayonunun düzənlik, dağətəyi və dağ çöllərində gündüz və axşam saatlarında tədqiqatlar aparılmışdır. Tədqiqat ərazisi kimi yaşayış yerlərindən kənar yerləşən, əsasən qış otlaqları kimi istifadə olunan stasiyalar seçilmişdir. Ərazidə suda-quruda yaşayanların 3 növü, sürünənlərin isə 8 növü qeydə alınmışdır. Suda-quruda yaşayanlardan göl qurbağası (*Pelophylax ridibundus*) və naxışlı quru qurbağası (*Bufotes variabilis*) adi növlər olub, su ətrafında gecə saatlarında müşahidə olunmuşdur. Suriya sarımsaqiyli qurbağası (*Pelobates syriacus*) isə Xızı ərazisi üçün ilk dəfə qeyd olunmuşdur. Növ nəsli kəsilməyə həssas növ kateqoriyası (VU) ilə Azərbaycanın Qırmızı Kitabının 2-ci nəşrinə daxildir (2013). Aralıq dənizi tısbağası (*Testudo graeca*) dağlıq stasiyalarda azsaylı olub, nadir hallarda qeydə alınır. 13 günlük tədqiqatlar zamanı ümumilikdə 5 dəfə rast gəlinmişdir. Kərtənkələlərdən biçimli ilanbaş kərtənkələ (*Ophisops elegans*) fon növ hesab olunur. Xızı rayonunda ilanbaş kərtənkələnin populyasiya sıxlığını qiymətləndirmək və ekologiyasını öyrənmək məqsədi ilə marşrut üsulu ilə müxtəlif hava şəraitlərində və fərqli biotoplarda çöl tədqiqatları aparılmışdır. Tədqiqatlar zamanı məlum olmuşdur ki, ərazidə növün populyasiya sıxlığı fəsli və gündəlik hava şəraiti, ərazinin torpaq və bitki örtüyü, hündürlük, yamacın ekspozisiyası kimi faktorlardan asılıdır. İlanlardan xaltalı eyrenis (*Eirenis collaris*), qurdvari korilancıq (*Xerotyphlops vermicularis*), qərb yatağanı (*Eryx jaculus*), əsl suilanı (*Natrix tessellata*), çuxurbaşlı kələz ilanı (*Malpolon insignitus*) və Levantiya gürzəsi (*Macrovipera lebetina*) müşahidə olunmuşdur. Növlər seyrək kserofit və efemer bitki örtüyü olan quru, daşlı və gilli yamaclara üstünlük verirlər.